*Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında

# ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı xidmətlərinə görə təltif edilirlər:

1.1.1. minatəmizləmə sahəsinin inkişafında fəal iştiraka görə;

1.1.2. minatəmizləmə sahəsində səmərəli əməkdaşlığa verilən əhəmiyyətli töhfəyə görə;

1.1.3. minatəmizləmə sahəsində Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində göstərilən xidmətlərə görə.

**Maddə 2. Təltif edən orqan**

"Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

---

Azərbaycan.- 2023.- 15 iyun.- S.8.